# Heç kəs unudulmur

Novruz bayramı ərəfəsində Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin kollektivi Novruz bayramı münasibətilə İkinci Qarabağ Müharibəsi şəhidi Aqşin Ənvərli və şəhid Məhəmməd Qarayevin ailəsini ziyarət edib. Tədbir ilk olaraq Aqşin Ənvərlinin xatirəsini əbədiləşdirmək məqsədilə inşa olunmuş abidə kompleksini ziyarətlə başlamışdır. Daha sonra şəhid Məhəmməd Qarayevin ailəsi bayram günü münasibətilə ziyarət olunmuşdur. Tədbir çərçivəsində qəhrəman oğullarımızın hünər və şücaətindən söz açılmış, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuzun səyi nəticəsində Qarabağın düşməndən tamamilə azad edilməsi və bu gün Novruz bayramının işğaldan azad olunmuş ərazilərdə təntənəli şəkildə qeyd edilməsi vurğulanmışdır. Hər iki şəhidin ailəsi bayram günü münasibətilə ziyarət edilməsinə, dövlətimizin onlara göstərdiyi diqqət və qayğıya görə minnətdarlıqlarını bildirdilər.

# Milli-mənəvi dəyərlərimizin hamisi

Heydər Əliyev Mərkəzi və GİKM-in Dağlıq Şirvan regional nümayəndəliyinin Qəbələ bölməsinin birgə təşkilatçılığı ilə Novruz bayramı münasibəti ilə tədbir keçirilib. Tədbiri mərkəzin direktoru Kəmalə Qasımova açaraq milli birlik və həmrəylik rəmzi olan müqəddəs Novruz bayramı münasibəti ilə tədbir iştirakçılarını təbrik etmiş, hər bir ailəyə bol ruzi, xoşbəxtlik və səadət arzulamış, milli-mənəvi dəyərlərin qorunması və gələcək nəsillərə çatdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolundan bəhs etmişdir. Digər çıxış edənlər tərəfindən milli adət-ənənələrin gələcək nəsillərə ötürülməsi və milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasının vacibliyi iştirakçıların diqqətinə çatdırılıb.Tədbirdə şagirdlərin ifasında şən mahnılar səsləndirilib, şeirlər söylənilib, milli rəqslər nümayiş etdirilib. Şənlik boyu Novruz adətləri icra edilib, maraqlı oyunlar, viktorinalar keçirilib. Sonda şagirdlərə "Tərifnamə"lər və hədiyyələr təqdim edilib.

**İlhamə SEYİDOVA,**
**Qəbələ şəhəri.**

# Bir qəlbin çırpıntıları

***Reportaj***

**Güman olub dumanlarda yaşayanım**

-Mənə Şəhriyardan danış...

-Yox, yox... Balam ölməyib ki... Öz işindən, igidliyindən özü danışacaq! O, ölə bilməz...

O, mənim tək ümidgahım! Mənim həyatımı dəyişirdi... xoşbəxtliyə doğru mayakım...




Söz vermişdi... Ev almışdı, maşın almışdı öz zəhmət haqqı ilə - illərini, gəncliyinin ən gözəl çağlarını vermişdi...

Qarşımızda Şəhriyarın şəkilləri... Uşaqlıq, yeniyetməlik, hərbi litseyin müdavimi olduğu, hərbi işdə olduğu illərin xatirə şəkilləri, döyüş və terror hadisələrindən sonrakı şəkilləri, hərbiçi dostlarıyla birgə xatirəyə çevrilən fotolar...

Ana şəkillərə göz yaşlarından sıxılan gözlərini böyüdərək baxır, daxilən bütün cismini saran bala yanğısını ağı dolu, oxşamalar dolu sözlərilə mənə çatdırırdı...

-Ölə bilməz mənim balam... Çox igid, ehtiyatlı, xüsusi təyinatlı idi, boylu-buxunlu, güclü idi, döyüşlərdən mərdliklə çıxmışdı, medalları var. O, mənim həyatımı söndürməz... məni tək qoymaz... İlk məktəbə getdiyi gün Vətən haqqında şer demişdi balam! Vətənpərvər, xalqını sevən, millətini sevən biri idi. Uşaqlığını belə hərbi təhsilə həsr etdi... Arzusundan, istəyindən döndərə bilmədim, ailənin tək uşağısan, dedim... Kişi sənətidir hərbiçi olmaq, dedi... Yox, yox ölüm yaraşmaz ona... Sağdır yaşayır balam, işdədir, gələcək! O, məni, atasını tək qoya bilməz...

Sahilə müəllimə ilə çox çətinliklə də, ağrılı da olsa söhbət etdik... Bala itkisi danışıq tərzinə də arzu-istəklərinə də, yaşam tərzinə də o qədər ağır təsir etmişdir ki... Onu ovundurmağa çalışsaq da ovunmurdu...

-Necə yaşayaram onsuz, necə yaşayaq onsuz-ümüdsiz, gümansız...

Oğluna heç ölümü yaraşdırmaz, şəhid balasından danşdıqca dili çaşardı...



**Tanıyırsınızmı?...**

Şəhriyar Ramiz oğlu Əlibəyli - Qəbələ rayonun Vəndam qəsəbəsində 25 oktyabr 1994-cü ildə dünyaya göz açmışdır. 2001-ci ildə Vəndam 1 saylı orta məktəbin I sinfinə daxil olmuş, 2004-cü ilə qədər bu məktəbdə təhsil almışdır. Sonra isə ailəsi Bakı şəhərinə köçdüyü üçün Bakının Badamdar qəsəbəsindəki 236 saylı orta məktəbdə təhsilini davam etdirmişdir. O, C. Naxçıvanski adına hərbi litseyə daxil olmuşdur. Azərbaycan Ali Hərbi Məktəbinin məzunu olan Şəhriyar 2018-ci ildən Qazax rayonunda "N" saylı hərbi hissədə rabitəçi kimi fəaliyyət göstərmişdir. 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı könüllü olaraq Xüsusi Təyinatlı Qüvvələr qrupuna qoşularaq Şuşa, Xocavənd, Laçın, Kəlbəcər uğrunda döyüşlərdə ön cəbhədə iştirak etmişdir. O, Xüsusi Təyinatlı Qüvvələrdə xidmətini davam etdirmişdir.

2020-ci ildə 44 günlük müharibədə xüsusilə Şuşanın azad olunmasında şücaətlə döyüşmüşdür. Onun bu döyüşlərdə "Şuşa qartalı" adı alması və döyüş zamanı aldığı medallar da təsadüfi deyildi... Döyüşdüyü hər bir rayonun azad olunmasında igidliyinə görə medallarla təltif olunmuşdur. Həmçinin "Vətən müharibəsi iştirakçısı", "Hərbi xidmətdə fərqlənməyə görə" medalları, Fəxri fərman və təltifnamələrlə təltif olunmuşdur.

"Odun-alovun" içindən sağ-salamat qurtaran, taleyin ona yenidən bağışladığı oğluna, qəhrmanlıqla döyüşüb evə gəlib ana qollarına sığındığı anlar onun həyatının ən xoş dəqiqələri idi.. Övladının xeyirlisi ilə evlənməsi və toy məclisinin qurulması da xəyalında tez-tez yaşadığı ən başlıca arzusu idi. Hər dəfə Şəhriyara bu haqda deyəndə "olacaq, olacaq" deyir, araya söz qatırdı. Ancaq fələyin, Sahilə ana üçün hazırladığı "məclis" dən xəbəri yox idi...

2023-cü ilin mart ayı... Şəhriyar təzə evə yazılmışdı, 3 ay idi, evə lazım olan avadanlıqları da almışdı. Ata və anasını sevindirmişdi və inşallah yaxın vaxt ərzində xeyir işə başlamaq olduğunu da hiss etdirmişdi.

Ancaq... Ancaq 2023-cü ilin baharının ilk günlərində elə bir dəhşətli xəbər aldı ki ailə... O xəbər Şəhriyarın ailəsinin, əzizlərinin dünyasını qara buludlara qərq etdi... o buludlar hələ də onların göz "pərdəsindən çəkilmir". Şəhriyarın ölümünü qəbul edə bilmir, inanmaq istəmirlər.Şəhidlik ən ulu titul, ən uca zirvə olsa belə, övladının yoxluğu bu uca titullarla ürəkləri səngitmir. Vətən üçün böyüdüldü Şəhriyar da, öz igid şəhid dostları kimi- Ancaq ananın tək övladının öz arzularına uyğun olaraq inadla "kişi sənəti" seçməsi və kişi kimi yaşaması yaşadığı bahar ömrünün əbədləşməsi belə ananın qəlbinin qəm dastanının acısını, yanğısını səngitmir.

Bəli 2023-cü ilin mart ayının 5-də səhər saatlarında həmişəki kimi qanunsuz erməni silahlı dəstələri Ermənistandan Qarabağ iqtisadi qayonuna silah sursat və şəxsi heyət daxil etməyə cəhd göstərmişdir. Azərbaycan Ordusu tərəfindən qanunsuz hərbi daşınmalar həyata keçirən nəqliyyat vasitələri saxlanılaraq yoxlanılıb. Həmin yoxlama zamanı qarşı tərəf atəş açıb. Şəhriyar insident zamanı yüksək döyüş nümunəsi göstərərək erməni hərbçilərini məhv edib və qəhrəmancasına şəhid olub... Martın 6-da II Şəhidlər Xiyabanında dəfn edilmişdir. Şəhriyar ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunmuşdur.

**Mən səni axtarıram...**

Martın 5-də II Şəhidlər xiyabanında o qədər ziyarətçi var idi ki... Axı bizim igid Şəhriyarımızın anım günü idi. Qəbələdən şəhid valideynləri, müəsisə nümayəndələri, RİH-nin nümayəndələri, Yasamal rayon İH-nin nümayəndəsi, hərbiçilər, Şəhriyarın orta məktəb yoldaşları, oxuduğu litsey və Ali Hərbi Məktəbin nümayəndələri, silahdaşları ona dərs deyən müəllimləri, Şəhriyarın əzizləri Qəbələ rayonundan, həm də Bakı şəhərindən gələn vətənpərvər insanlar anım məclisində iştirak etdilər. Tədbiri həmişə şəhid valideynləri ilə birgə olan Təranə Alməmmədova apardı. Tədbirdə həmçinin vətənpərvər təşkilat və qurumların nümayəndələri də iştirak etmiş və şəhidimiz, ordumuz haqqında çıxışlar etmişlər. Tədbir Fəxri Xiyabanın yaxınlığında Mərasim evində davam etdirilmiş, Şəhriyar, onun döyüş şücaəti, qəhraman və həmişə bahar ömürlü gəncliyi haqqında çıxışlar dinləmiş, ruhuna dualar oxunmuşdur.

Həmçinin mərasim evində şəhidə ayrılmış guşədə qəhramanımıza aid müxtəlif şəkillərə baxılmış uşaqlığından ta şəhid olduğu ana qədər video-çarxa baxış keçirilmişdir.

Həmçinin ona həsr olunmuş "Qaya Qartalı" kitab-jurnal tədbir iştiakçılarına paylanılmışdır.

Ancaq Sahilə müəllimə, Sahilə ana oğlunun yoxluğunun acısını azacıq da olsun özündən uzaqlaşdıra və yenə, yenə də onun ailəsinin gümanlar buraxıb dumanlara çəkilməsini qəbul edə bilmirdi...

"Səni axtarıram..." deyirdi, ona aid iz və hərəkətlərdə, bu hərəkət və izlərdə-oxşarlıqlarda...

Onun arzularına uyğun həqiqətləri görəndə ... hər addımda-hər anda axatrırdı... Bir bayrağa bükülü qəbul etdiyi övladı hər bayraq dalğasında axatarırdı və axtarır...

Şəhriyar isə günəşin şəfəqlərinə dönüb yer üzünə vətən, yurd sevgisini səpələyir!... Bax, buna görə yaşamağa dəyər, bacım-Sahilə ana! O günəş şəfəqlərini qarşılamaq, günəşə baxmaq üçün...

**BİBİXANIM.**

# Bahar ömürlü igidlər

Dünyaya göz açan hər bir körpə ayaqda duracaq addımlarından və dil açarkən sözlərindən insanlarla münasibətindən sanki gələcəkdə necə insan olacağının ilkin nişanələrini hiss etdirir. Doğru, bu xarakter əvvəllər hiss olunmasa da zaman keçdikcə öz təsdiqini tapır. Sadəcə keçmişi varaqlamaq, məntiqlə xatırlamaq lazım. Məhz vətənpərvər doğulan insanlar bu gözəl xarakterini yaşa dolduqca özündən asılı olmayaraq biruzə verirlər: əməlləri ilə, işi, peşəsi, sevgisi ilə. Vətən, xalq sevgisi güclü olan mənəviyyatca zəngin olan şəhidlər, qazilər məhz belə xarakterlilərdir.

Qəbələmizin belə igidləri öz qəhramanlıqları ilə tarixi yenidən yazdılar. Onlar arasında baharın ilk ayında martda doğulanlar və şəhadətə qovuşanlar haqda oxucularımızı tanış edəcəyik.

**Bahar doğumlular**

***Natiq Əjdər oğlu İsmayılov*** - 1980-cı il martın 5-də Bunud kəndində doğulmuşdur. VIII sinifə kimi Bunud kənd məktəbində, sonra isə Cəmşid Naxçıvanski adına hərbi litseydə təhsil almışdır. Təhsilini Heydər Əliyev adına Hərbi akademiyada davam etdirmişdir. Xidmət etdiyi dövrdə əsl hərbiçi kimi yetişmiş və xidmət etdiyi sahədə hörmət qazanmışdır. Natiq 1 - 6 aprel 2016-cı ildə baş verən Aprel döyüşlərində vuruşmuşdur. 2020-ci ildə isə ehtiyata buraxılmışdır. Lakin həmin ilin sentyabr ayında başlanan müharibədə təcrübəli bir hərbiçi kimi iştirak etmiş, oktyabrın 17-də Füzuli istiqamətində gedən döyüşlərdə şəhadətə qovuşmuşdur. Natiq İsmayılov Bunud kəndində dəfn olunmuşdur. Həm işlədiyi dövrdə həm də ölümündən sonra bir çox medallarla təltif olunmuşdur. Onun 4 övladı - yadigarı orta məktəb şagirdləridir. Natiq yaddaşlarda əsil vətənpərvər igid kimi yaşayır.



***İsmayıl Yaşar oğlu Qurbanov*** - 6 mart 2001-ci ildə Böyük Pirəli kəndində anadan olmuşdur. Orta təhsilini məhz doğulduğu kənddə almış, təhsilini Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində davam etdirmişdir.İsmayıl 2019-cu ilin iyul ayında həqiqi hərbi xidmətə çağırılmışdır. O, 2020-ci ilin 27 sentyabrında başlanan II Vətən Müharibəsində iştirak etmişdir. İsmayıl Fizuli rayonu istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. 28 sentyabrda Soltannuxa kəndində dəfn olunmuşdur. Ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şücaətə görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur. Müharibənin ilk şəhidlərindən olan İsmayıl Qurbanov həmişə xatirələrdə ən cəsur gənc qəhraman kimi yaşayır.



***Adəm İkram oğlu Heydərov*** - 26 mart 2000-ci ildə Bum qəsəbəsində doğulmuşdur. 2006-2017-ci illərdə doğulduğu qəsəbədə orta təhsil almışdır. 2018-ci ildə həqiqi hərbi xidmətə çağırılmışdır. 2020-ci ildə sentybr ayında başlanan 44 günlük müharibədə iştirak etmiş, igidliklə döyüşmüşdür. Adəm Heydərov oktyabrın 13-də Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. Lakin nəşi uzun müddət axtarışdan sonra noyabrın 17-də ailəsinə



**(Ardı 6-cı səhifədə).**